AZƏRBAYCAN ORDUSU

# General-mayor Polad Həşimovun xatirəsi yad edildi

*Müdafiə Nazirliyinin bir qrup zabiti, eləcə də Vətən müharibəsinin iştirakçıları, Milli Qəhrəmanın ailə üzvləri İkinci Fəxri xiyabanda şəhid general-mayor Polad Həşimovun xatirəsini ehtiramla yad etdilər.*





Tədbirdə mərasim iştirakçılarının diqqətinə çatdırıldı ki, bu gün xalqımızın qəhrəman oğlu, Azərbaycanın Milli Qəhrəmanı general-mayor Polad Həşimovun doğum günüdür. Qeyd edildi ki, Polad Həşimov 2 yanvar 1975-ci ildə Qəbələ rayonunun Vəndam kəndində anadan olub. Ailəsi ilə birgə Sumqayıt şəhərinə köçdüyündən Polad Həşimov orada 28 və 34 nömrəli məktəblərində orta təhsil alıb. Sonra o, taleyini hərbçi peşəsinə bağlamaq üçün indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub və təhsil ocağını müvəffəqiyyətlə bitirib. Taqım komandirliyindən general-mayor ali hərbi rütbəsinədək yüksələn Polad Həşimov əsasən cəbhə bölgələrində xidmət edib, daim qarşıya qoyulan əmr və tapşırıqların layiqincə yerinə yetirilməsi üçün səy göstərib. General-mayor Polad Həşimov 14 iyul 2020-ci il tarixdə Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində gedən şiddətli döyüşlər zamanı düşmən təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olub. Azərbaycan Respublikası prezidentinin 9 dekabr 2020-ci il tarixli Sərəncamı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Keçirilən anım mərasimində Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Milli Qəhrəmanın həyat və döyüş yolu haqqında ətraflı məlumat verdi: "O, öz qəhrəmanlığı ilə Azərbaycan generalının, Azərbaycan zabitinin nəyə qadir olduğunu bütün dünyaya sübut etdi. Polad Həşimovda olan Vətən, torpaq sevgisi, vətənpərvərlik ruhu onu şəhidlik zirvəsinə ucaltdı. Cəsurluq, igidlik, mərdlik nümayiş etdirən general-mayor Polad Həşimov Azərbaycan Ordusunun döyüş ruhunun sarsılmazlığını bir daha sübut etdi. Sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsində Müzəffər Azərbaycan Ordusu Poladların, Mübarizlərin, Raquflların, Samidlərin, Çingizlərin, … qisasını aldı. Qəhrəman oğullarımız bir daha sübut etdilər ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuz istənilən an öz sözünü deməyə qadirdir. Bu gün Azərbaycanın Milli Qəhrəmanı general-mayor Polad Həşimovun həyat və döyüş yolu gənc nəslə örnəkdir."

Polkovnik Aydın Əyyubov Müdafiə Nazirliyinin rəhbərliyi adından şəhidin ailəsinə başsağlığı verdi və Polad kimi oğulların ölməzliyini, əbədiliyini bir daha vurğuladı. Zabit general-mayor Polad Həşimovun vətənpərvərliyindən, qəhrəmanlığından və şərəfli döyüş yolundan söz açdı. O bildirdi ki, torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin anım günlərinin keçirilməsinin əhəmiyyəti olduqca böyükdür. "Qəhrəmanlarımızın yad edilməsi şəxsi heyətin hərbi vətənpərvərlik tərbiyəsinə, döyüş ruhunun yüksəldilməsinə, mənəvi-psixoloji hazırlığının və vətənpərvərlik hisslərinin artırılmasına böyük töhfələr verir. Xalqımız da azadlığı, müstəqilliyi üçün canından keçən oğullarını daima qəlbində yaşadacaq. Onların adları həmişə qəhrəmanlıq, cəsurluq nümunəsi kimi çəkiləcək."

Zabit onu da vurğuladı ki, general-mayor Polad Həşimov şəhid olanədək şücaət, fədakarlıq nümunəsi idisə, şəhidlik zirvəsinə yüksəldikdən sonra qəhrəmanlıq nümunəsinə çevrildi.

Anım tədbirində çıxış edən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin nümayəndəsi Hacı Rauf Sərdarov "Vətən" və "şəhidlik" məfhumlarının əvəzolunmaz müqəddəslərdən sayıldığını diqqətə çatdırdı. "İslam dinində Vətəni, dövləti və ailəni qorumaq insanların başlıca vəzifəsi hesab edilir. Erməni təcavüzkarları daim torpaqlarımıza qarşı işğalçılıq, soyqırımı niyyəti güdüblər. Abidələrimiz məqsədyönlü şəkildə yerlə-yeksan edilib. 30 ildən artıq davam edən bu təcavüz, nəhayət, sona yetdi. Haqq öz yerini tapdı, tarixi ədalət bərpa olundu. Şəhidlik zirvəsinə yüksələn qəhrəman oğullarımıza Allahdan rəhmət, yaxınlarına səbir diləyirəm."

Şəhidin qardaşı İlham Həşimov Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirdi.

Anım mərasimində müharibə iştirakçıları, Vətən müharibəsinə cəlb olunan könüllülər Ali Baş Komandanın əmrinə hər an hazır olduqlarını bildirdilər.

Şəhidin məzarı önünə Müdafiə Nazirliyi adından əklil və gül dəstələri qoyuldu, dualar oxundu, Milli Qəhrəmanın xatirəsi dərin ehtiramla yad olundu.

**Leytenant
Elçin İMANOV,
"Azərbaycan Ordusu"**